# *Hikmət HACIYEV:* "Vətən müharibəsində qalib olduğumuz kimi, koronavirusla mübarizədən də qalib çıxmalıyıq"




"Dünyada koronavirusa yoluxma sürətlə artmaqdadır. Azərbaycanda da artım tendensiyası ciddi narahatlıq doğurur. Ölüm sayında da artımın olması ciddi narahatlıq yaradır".

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev noyabrın 19-da keçirilən brifinqdə deyib.

Hikmət Hacıyev bildirib: "Yaralı əsgərlərimizin müalicəsi də səhiyyə sistemi qarşısında ciddi tapşırıqlar qoyur. Hərbi müalicə mərkəzlərində koronavirusa yoluxmanın qarşısının alınması üçün ciddi tədbirlər görülür. Şəxsi heyət arasında yoluxma halları özünü xüsusi büruzə verməyib. Hərbi çağırışçılar da xüsusi testdən keçirilir ki, virus hərbi hissələrdə yayılmasın. Vətən müharibəsində qalib olduğumuz kimi, koronavirusla mübarizədən də qalib çıxmalıyıq".

* * *

Ayrı-ayrı hallar istisna olmaqla, Silahlı Qüvvələrimizdə yoluxma kütləvi formada baş verməyib. Bu istiqamətdə ayıq-sayıqlığın davam etdirilməsi vacibdir.

Hikmət Hacıyev qeyd edib ki, bizim yaralı əsgərlərimiz var və onların koronavirusa yoluxmasının qarşısının alınması da əsas vəzifələrdən biridir. Onların sağlamlığını qorumaq üçün bu, vacibdir. Səhiyyə sistemimiz iki cəbhədə fəaliyyət göstərir. Ona görə də bu kimi zərurətləri, artım templərini nəzərə alaraq, Operativ Qərargah bir sıra qərarlar qəbul edib.

Bəzi koronavirus xəstələrinin özlərini evdə müalicə etməsi barədə danışan Prezidentin köməkçisi bildirib: "Bir sıra xəstələr həkimlərin köməyi ilə özlərini koronavirusdan evdə müalicə etməyə çalışırlar. Həmin xəstələr ağırlaşmış formada xəstəxanaya müraciət edirlər ki, bu da həm onların özünü, həm də həkimləri çətin vəziyyətdə qoyur".

* * *

Koronavirusa qarşı Azərbaycana vaksinin gətirilməsi istiqamətində müvafiq addımlar atılır.

Hikmət Hacıyev bildirib: "Dünyada koronavirus vaksininin istehsalı ilə bağlı gedən proseslər yaxından izlənilir. Beynəlxalq səviyyədə təsdiq olunacaq vaksinin Azərbaycana gətirilməsi istiqamətində aidiyyəti qurumlar tərəfindən tədbirlər həyata keçirilir".

Azərbaycan.- 2020.- 20 noyabr.- S.2.